**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

________________

27.02.2023-cü il

# Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Əmtəə bazarının səmərəliliyi və rəqabət" işçi qrupunun 2023-cü il üzrə Fəaliyyət Planı

| Sıra №-si | İndikatorlar və tematik sahələr | Mövcud vəziyyət (son hesabat üzrə) | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcra orqanları | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| ***Qlobal Rəqabətlilik Hesabatı*** | | | | | | | |
| 1. | **7.02 Bazar dominant-lığının səviyyəsi**<br><br>**7.03 Xidmət sahələri üzrə rəqabət** | 19-cu yer, 62 bal<br><br>36-cı yer, 72 bal | Bu göstərici Dünya İqtisadi Forumunun "Ölkənizdə korporativ fəaliyyəti necə xarakterizə edirsiniz?" sorğusu əsasında müəyyən olunur. Cavab 1-7 bal üzrə qiymətləndirilir [1 = bir neçə biznes qrupu üstünlük təşkil edir; 7 = bir çox firma arasında yayılmışdır].<br><br>Bu göstərici Dünya İqtisadi Forumunun aşağıdakı sorğusu üzrə 3 komponentin orta göstəricisi əsasında hesablanır: "Ölkənizdə | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurum tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən həmin quruma zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Təbii inhisar subyektlərinin fəaliyyətlərində antiinhisar qanunvericiliyinə riayət edilməsi vəziyyəti üzrə təhlillərin aparılması, nəticəsindən asılı olaraq müvafiq tədbirlərin görülməsi və zərurət yarandıqda müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi; | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti - AİBNDX) | Xamis Seyranov, Cəfər Babayev, Şahin Nağıyev, Gülnar Hüseyn |
| | | | | **2.** İnhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması ilə bağlı müvafiq tədbirlərin görülməsi, eləcə də rəqabəti məhdudlaşdıran gizli sövdələşmələr üzrə beynəlxalq təcrübə nəzərə alınmaqla inhisarçı subyektlərin fəaliyyət göstərdiyi bazarlarda bu istiqamətdə müvafiq araşdırmaların aparılması; | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | aşağıdakı xidmətlərin təminatı nə dərəcədə rəqabətlidir:<br>(a) peşəkar xidmətlər (hüquqi xidmətlər, mühasibat uçotu, mühəndislik və s.);<br>(b) pərakəndə xidmət;<br>(c) şəbəkə sektoru (telekommunikasiya, kommunal xidmətlər, poçt, nəqliyyat və s.)?"<br>Cavab 1-dən (rəqabətli deyil) 7-yə (yüksək rəqabətlidir) qədər dəyişir. | **3.** Haqsız rəqabətin qarşısının alınması və aradan qaldırılması ilə bağlı müvafiq tədbirlərin görülməsi, ayrı-ayrı əmtəə bazarlarında müvafiq araşdırmaların aparılması; | | | |
| | | | | **4.** İnhisarçı subyektlərin fəaliyyət göstərdiyi bazarlara yeni iştirakçıların daxil olması imkanlarının və şəraitin qiymətləndirilməsi, nəticələri üzrə təkliflərin Komissiyaya təqdim edilməsi; | 01.09.2023 | | |
| | | | | **5.** Haqsız rəqabətin əlamətləri barədə istehlakçıların və sahibkarlıq subyektlərinin məlumatlandırılması və onların haqsız rəqabətin qarşısının alınmasında iştiraka təşviq edilməsi, KİV-də və sosial şəbəkələrdə bu məqsədlə zəruri məlumat və materialların yerləşdirilməsi. | Mütəmadi | | |
| 2. | **12.09 Alıcıların istehlakçılıq meyarları** | 18-ci yer, 59,1 bal | Dünya İqtisadi Forumunun "Sizin ölkənizdə alıcılar satınalma qərarları qəbul edərkən nəyə əsaslanırlar?" sorğusuna alıcıların cavabı [1=yalnız ən aşağı qiymətə əsaslanırlar, 7= yaxşı keyfiyyət göstəricisinə əsaslanırlar]. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurum tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən həmin quruma zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** İstehlakçıların öz hüquqları barədə maarifləndirilməsi istiqamətində işlərin davam etdirilməsi; | Mütəmadi | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Elnur Bağırov, Roman Qaraşov, Gülnar Hüseyn, Tural İsmayılov, Vaqif Ataşov |
| | | | | **2.** Sahibkarların istehlakçıların hüquqlarının qorunmasında fəallığının artırılması; | | | |
| | | | | **3.** İstehlakçıların hüquqlarının pozulması ilə əlaqədar daxil olmuş müraciətlərə mövcud qanunvericiliyin tələblərinə uyğun baxılması və görülmüş işlərə dair məlumatların KİV və sosial şəbəkələr vasitəsilə yayılmasının təmin olunması; | | | |
| | | | | **4.** İstehlakçıların hüquqlarının daha səmərəli müdafiəsi üçün beynəlxalq təcrübə öyrənilməklə qanunvericilik aktlarına əlavə və dəyişikliklərin edilməsi barədə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması; | 01.06.2023 | | |
| | | | | **5.** İstehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət qurumları və QHT-lərlə daha səmərəli əməkdaşlığın aparılmasının təşkil edilməsi; | Mütəmadi | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **6.** İstehlak mallarının texniki, keyfiyyət və digər göstəricilərinin etiketdə (markalanmada) tam əks olunması üzərində nəzarətin gücləndirilməsi və istehlakçı maraqları baxımından zəruri keyfiyyət göstəricilərinə üstünlük verilməsi istiqamətində əhalinin maarifləndirilməsi. | | | |
| ***Qlobal İnnovasiyalar İndeksi*** | | | | | | | |
| 3. | **4.3.2. Yerli sənayenin diversifikasi-yası** | 68-ci yer, 81,0 bal | Mükəmməl səviyyədə diversifikasiya olunmuş sənaye sistemi olan ölkənin indeksi sıfıra yaxın olduğu halda, yalnız bir sənaye alt-sektorunda fəal olan ölkənin indeksi 1-ə bərabər olacaq (ən az şaxələndirilmiş). | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Sənaye sektorunun inkişafının sürətləndirilməsi, innovativ texnologiyalara əsaslanan yeni sənaye müəssisələrinin qurulması, daxili istehsalın rəqabət qabiliyyətliliyinin gücləndirilməsi, idxalın əvəzlənməsi və yerli məhsullarla özünütəminetmə səviyyəsinin yüksəldilməsi məqsədilə yeni dəstək mexanizmlərinin işlənib hazırlanması; | 01.12.2023 | İqtisadiyyat Nazirliyi | Ceyhun Həsənov |
| | | | | **2**. Ələt azad iqtisadi zonasının fəaliyyətə başlaması üzrə tədbirlərin görülməsi; | | | |
| | | | | **3.** Prioritet emal sənayesi sahələrinin inkişafı üzrə tədbirlərin görülməsi; | | | |
| | | | | **4.** Yeni sənaye zonalarının yaradılması üzrə tədbirlərin görülməsi; | | | |
| | | | | **5.** İşğaldan azad edilmiş ərazilərin resurslarından uyğun sənaye məqsədləri üçün səmərəli istifadə olunması ilə bağlı tədbirlərin görülməsi; | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **6.** *Sənaye sahələrinin diversifikasiyası siyasəti üzrə rəqabət nöqteyi-nəzərdən dəstəkləyici funksiyanın icra edilməsi:* | | | |
| | | | | **6.1.** Yeni və yaxud inkişaf etməkdə olan sənaye sahələrində bazarlara giriş maneəsinin olub-olmamasının tədqiq edilməsi, bazarlarda hökmran mövqe vəziyyətinin təhlil edilməsi, bazarın inkişafı mərhələsində qeyri-qanuni iqtisadi sövdələşmələrin mövcudluğunun, o cümlədən sürətli şəkildə bazarı ələ keçirmə kimi qeyri-rəqabətli iqtisadi davranışların təhlili, müvafiq bazar subyektlərinin pul-kredit alətlərinə bərabər imkanlı və bərabər hüquqlu çıxışının təmin edilməsi, yeni sənaye sahələrində güzəşt və digər subsidiyaların verilməsində rəqabət imkanlarına təsirlərinin araşdırılması; | Mütəmadi | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Fuad Yadigarov, Cəfər Babayev |
| | | | | **6.2.** Yeni sənaye sahələrinin yaradılmasında ilk növbədə ortaya çıxan az iştirakçılı bazar vəziyyətlərinin (yüksək təmərküzləşmə) şaxələndirilmiş vəziyyətə gətirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi, o cümlədən həmin bazara giriş təşviqlərinin aparılması. | | | |
| 4. | **4.3.3 Daxili bazarın həcmi** | 75-ci yer, 155,9 bal | Daxili bazarın ölçüsü ölkə ÜDM-nin PPP qiymətləndirməsinə əsaslanan ÜDM-dir, cari beynəlxalq dollarlarla (milyardla) ölçülür. | **1.** Bazarlarda çox iştirakçılılığın təmin edilməsi, bazar həcminin böyüməsi və həcmin stabilliyinin qorunub saxlanılması baxımından müvafiq bazarlardakı giriş maneələrinin tədqiq edilməsi və bu cür maneələr olduğu halda onların aradan qaldırılması üzrə konkret addımların atılması: | | | |
| | | | | **1.1.** Bazara girişi məhdudlaşdıran patent-lisenziya hallarının olub-olmamasının təhlil edilməsi, bu cür giriş maneəsi olduğu halda müvafiq patentin və ya lisenziyanın verilməsi şərtlərinə yenidən baxılmasına dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi; | Mütəmadi | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Fuad Yadigarov, Cəfər Babayev, Şahin Nağıyev |
| | | | | **1.2**. İri investisiya tələb edən bazarlarda maliyyə-kredit alətlərinə çıxışın yeni bazar subyektləri üçün əlçatanlığının təhlil edilməsi və bu sahədə problemlər olduğu halda onların aradan qaldırılması istiqamətində konkret işlərin görülməsi; | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **1.3.** Bazarın həcminin az sayda subyekt əlində cəmləşməsinin təbii vəziyyətlə və ya hökmran mövqedən sui-istifadə nəticəsində yarandığının müəyyənləşdirilməsi məqsədilə bu sahələrdə antiinhisar qanunvericiliyinə nəzarətin gücləndirilməsi. | | | |
| ***Dövlət satınalmaları*** | | | | | | | |
| 5. | **Dövlət satınalmaları** | - | - | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | ***1.*** *Dövlət satınalmalarına dair aşağıdakı tədbirlərin görülməsi:* | | | |
| | | | | **1.1.** Dövlət satınalmalarının vahid internet portalının (bundan sonra - portal) tərkibində İcazələrin Elektron Mübadiləsi alt-sisteminin yaradılması; | 01.07.2023 | İqtisadiyyat Nazirliyi (AİBNDX), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, digər aidiyyəti dövlət qurumları | Əhməd Həsənov |
| | | | | **1.2.** Qanunvericiliyin daha da təkmilləşdirilməsinə dair müvafiq təkliflər nəzərə alınmaqla hazırlanmış və aidiyyəti üzrə təqdim edilmiş “Dövlət satınalmaları haqqında” yeni qanun layihəsinin təsdiq olunması istiqamətində aidiyyəti üzrə müvafiq tədbirlərin görülməsi; | 01.05.2023 | İqtisadiyyat Nazirliyi (AİBNDX), Ədliyyə Nazirliyi | Əhməd Həsənov, Adil Əliyev |
| | | | | **2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində məsuliyyətin artırılması və yeni qanun layihəsinə uyğun olaraq əlavə məsuliyyətlərin müəyyən edilməsi ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi. | 01.06.2023 | İqtisadiyyat Nazirliyi (AİBNDX), Ədliyyə Nazirliyi | Əhməd Həsənov, Adil Əliyev |
| | | | | ***3.*** *Portalın təkmilləşdirilməsi və funksionallığının artırılması ilə bağlı aşağıdakı tədbirlərin görülməsi:* | | | |
| | | | | **3.1.** Müvafiq məlumatlar əsasında portalın funksional diaqnostikasının aparılması (stres-testlərin keçirilməsi), zəruri funksiyaların mövcud və işlək vəziyyətdə olmasına dair hesabatın (linklər göstərilməklə) hazırlanaraq Komissiyaya təqdim olunması; | 01.09.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi (AİBNDX) | Əhməd Həsənov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **3.2.** Portalın fəaliyyətini təkmilləşdirərək satınalma prosedurlarında çevikliyin və şəffaflığın artırılması, o cümlədən ictimai nəzarət imkanlarının genişləndirilməsi və əyani təlimlərin təşkilinə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim olunması; | 01.07.2023 | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Əhməd Həsənov |
| | | | | **3.3.** Bu Fəaliyyət Planının 5-ci bölməsinin 3.2-ci bəndi üzrə hazırlanmış təkliflər əsasında müvafiq tədbirlərin görülməsi və bu barədə rüblük hesabatın Komissiyaya təqdim olunması; | 2023-cü ilin II yarımilliyi | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Əhməd Həsənov |
| | | | | **4.** Bu Fəaliyyət Planının 5-ci bölməsinin 1.2-ci bəndində qeyd olunan yeni qanun layihəsi qüvvəyə mindikdən sonra sahibkarların, satınalan təşkilatların və ictimaiyyətin məlumatlandırılması üçün müvafiq kommunikasiya strategiyasının (görüşlər, təlimlər, təqdimatlar, bildirişlərin göndərilməsi və s.) hazırlanması və təsdiq edilməsi üçün aidiyyəti üzrə təqdim olunması; | Müvafiq qanun qüvvəyə mindikdən sonrakı 1 ay ərzində | İqtisadiyyat Nazirliyi (AİBNDX), İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) | Əhməd Həsənov, Rəşad Hüseynov |
| | | | | **5.** Müvafiq sahədə biznes mühiti və portaldan istifadə ilə əlaqədar fokus qrupları (sahibkarlar, konsaltinq şirkətləri və digər maraqlı tərəflər) arasında sorğuların keçirilməsi və diaqnostikaların aparılması, nəticələrə əsasən təkmilləşməni nəzərdə tutan təkliflərin hesabatla birlikdə Komissiyaya təqdim olunması; | 01.10.2023 | İqtisadiyyat Nazirliyi (AİBNDX), İİTKM | Əhməd Həsənov, Rəşad Hüseynov |
| | | | | **6.** Müvafiq sahədə aidiyyəti koordinatorlar, satınalan təşkilatın müvafiq əməkdaşları və sahibkarların nümayəndələri üçün onlayn təlimlərin keçirilməsi. | Mütəmadi | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Əhməd Həsənov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| 5. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahələrdə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi. | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |
| 6. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupları ilə əməkdaşlığın genişləndirilməsi və ölkədə faktiki göstərici və ya qanunvericilik tələbləri barədə məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması. | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |